# "Geyimin modelləşdirilməsi" mövzusunun tədrisi zamanı geyim məmulatlarının yaranma səbəblərinin öyrədilməsi

**Ofelya Şamil qızı Həmidova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
**E-mail:** ofelya46@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. A.O. İsmayılov,
p.ü.f.d., dos. K.L. Şirinov

**Açar sözlər:** moda, modelləşdirmə, fason, qarderob, modelyer
**Ключевые слова:** мода, моделирование, фасон, гардероб, модельер
**Key words:** fashion, modeling, style, gardrobe, fashion designer

Bütün geyim növləri insanlar dövrlərlə müxtəlif mərhələlərdə inkişaf etdikcə gəlib bizə çıxmışdır. Bunlar öz növbəsində aşağıda qeyd olunan qazıntılardan məlum olmuşdur. Məsələn, müxtəlif sancaqlar, sümük iynələri və insanın özü üçün geyim yaratmaqda lazım olan başqa əşyalar.

Hələ keçmiş eramızda F.Engels özünün 'Təbiətin dialektikası" əsərində yazırdı ki, insanlar eyni isti mühitdən soyuq mühitə keçdikdə, harada ki, il qışa və yaya bölünürdü onda, insanlara yaşamağı, soyuqdan və nəmlikdən qorunmaq üçün mütləq geyim növündən istifadə etmək tələbi irəli gəlirdi.

Beləliklə, geyimlərin əmələ gəlməsinin əsas səbəbi insanlar özlərini soyuqdan və atmosferin xarici təsirlərindən qorunmasıdır.

Bu ondan irəli gəlir ki, mühit şəraitinin soyuqdan istiyə və ya istidən soyuğa dəyişilərsə. Lakin əsas şərtlərdən biri də insanın əməyidir. Bu da ondan ibarətdir ki, insanlar soyuq şəraitdə əməklə məşğul olduqda, geydikləri məmulatlar bədəndə otursun deyə müxtəlif bağlayıcılardan istifadə edirdilər.

Yuxarıdakılardan aydın olur ki, geyim, insan bədənini istər bütöv və istərsə də yarı bütöv halda örtən əşyalar toplusudur.

Geyimlər materialın görünüşü ilə çiynilik və bellik adlanmağa başlamışdır. Məsələn, insanlar heyvan dəriləri ilə çiyini, döşü, kürək hissəni və s. sahələri örtürdülər. Bu öz növbəsində plaşlar, kürklər və köynəklər adlanırdı.

Bellik məmulatlar isə donlar, qısa şalvarlar adlanırdı. Geyim üçün materiallar aşağıdakılar idi: ağac, qabıqlı, yarpaqlar, bitki lifləri, digər sahələrdə isə vəhşi heyvanların dəriləri, quş lələkləri və balıq dəriləri və s.

Sonralar geyim üçün materiallar meydana çıxmağa başladı. Bu materialların əksəriyyəti heyvandarlıqdan və bitkiçilikdən alınırdı. Məsələn, kətan, pambıq, çətənə və s. liflər idi. Əvvəl bu materiallar toxunma üsulu ilə alınırdı. Sonra isə toxuculuq sənayesinin inkişafı ilə əlaqədar, toxucu dəzgahları yarandı ki, materiallar həmin dəzgahların köməyi ilə toxunmağa başlandı. Ona görə də bu materiallar texnikanın inkişafı sayəsində tətbiqi incəsənətin əsas obyekti sayılır.

Ümumiyyətlə, müxtəlif növ geyimlərin formalaşmasında və inkişaf etməsində moda əsas rol oynayır. Hələ keçmiş vaxtlarda hərbçilər başqa ölkələrin xalqları ilə döyüşdən qayıdanda özləri ilə müxtəlif əşyalar, mədəni materiallar o cümlədən geyim növlərini də gətirirdilər.

Bunların sayəsində geyim modası inkişaf etməyə başlandı.

Moda jurnalının vətəni Fransada Lion şəhəri hesab edilir. İlk moda jurnalı 1679-cu ildə Mariya-Luiza Orleanski şahzadəsi ilə II ispan kralı arasındakı toy mərasimi dövrü buraxılmışdır. Bu ilk jurnal adlanırdı. Bundan 100 il sonra Rusiyada 1779-cu ildə II Yekaterina tərəfindən çap edildi.

Moda probleminə başlamazdan əvvəl mütləq öyrənmək lazımdır ki, moda nədir? Moda iki anlayışda izah olunur.

Birincidə: - Moda rəssamın əli ilə tərtib olunan günün tələblərinə uyğun bir varlıqdır.

İkinci: - Moda uzun sürməyən bir dəb anlayışıdır. Burada rəssamın fiziki əməyi əsas rol oynayır.

İlin tələbi ilə moda digərini əvəz edir. Modanın yaranmasında xalqın geyimə olan marağından çox asılıdır. Modanın yaranmasına əsas əmək sərf edən rəssam - modelyerlərdır. İstənilən hər hansı sahə olursa olsun məmulat istehsal edirsə, mütləq həmin məmulatın modeli işlənməlidir. Ona görə də geyimin əsas bədii layihələndirilməsi başqa sənaye sahələri kimi əvvəl forma əmələ gətirmə daha doğrusu məmulatın forma və funksiyasından, konstruksiyasından, material və texnologiyasından asılı olaraq yerinə yetirilir.

“Moda nədir?” — dəb deməkdir, eyni zamanda rəssamın əli ilə tərtib olunan ilk başlanğıc varlığıdır. Model əşyanın yaşaması üçün əsas meyardır. Geyim sahəsində də moda tərtib olunur. Moda insan zövqü ilə əlaqədar olaraq, bütün cizgi üslublarını özündə əks etdirir. Hər bir dövr özünü geyim dəbini moda vasitəsilə əldə edir. Həyat tərzində bir çox təyin olunmuş modalar mövcuddur. Modalar daima bir dəbdə qalmır, çünki bir ölkədən o biri ölkəyə insanlar vasitəsilə götürülə bilər. Bizim müasir ölkəmizin tələblərindən biri odur ki, yaradılan moda yaxşı estetik zövqdə olsun, məqsəd isə kütləvi xidmətdə olsun. Keçmiş vaxtlarda geyim modası çox kortəbii bir halda yaradıldı. Modanı yaratmaq üçün anatomiyaya da müraciət etmək tələb olunur, çünki anatomiya yunan sözüdür, insan bədən fiqurlarının üzvlərə ayrılması deməkdir. Moda ilə əlaqədar olaraq biçimdə kortəbii aparılırdı. XI əsrdə yunanlar ilk dəfə olaraq ilk biçim modasını yaratmışlar. Həyat inkişafa başlandıqca yeni fikirlər meydana çıxmağa başladı. XIV əsrdə ilk konstruksiya etmə nəzəriyyəsi irəli sürüldü.

İlk dəfə XVII əsrdə moda jurnalı yaradıldı. İlk moda jurnalı 1679-cu ildə Şahzadə Mariya - Luiza ile II İspaniya kralı arasında toy mərasimi vaxtı meydana çıxdı. Bu vaxtdan 100 il sonra 1779-cu ildə jurnal Rusiyada Yekaterina tərəfindən yaradıldı. Bu ildən sonra elmi inkişaf ilə əlaqədar olaraq yeni-yeni modalar tərtib olunmağa başlandı. Modaların yaranması milli ənənələrə xas olan geyimlər buraxılmağa başlandı. Məqsəd insanları qəşəng, zövqlü geyindirmək idi və ona görə də istehsal olan geyimlər modalar əsasında tərtib olunmalıdır, çünki insan bədən fiqurunu əhatə edir. Hər şeydən əvvələ geyim zövqü oxşamalıdır, çünki geyim incəsənətin gözəllik əşyasıdır. Modanın dəyişməsi əhalinin istehlakçı tələbindən asılı olaraq daima qalmır, dəyişilir.

Texniki tərəqqi modanın inkişafının sürətlənməsinə böyük təsir edir. XIX əsrə qədər modanın dəyişilməsi əsrlərlə alınırdı, lakin sonralar modanın dəyişdirilməsi nəinki illərlə, hətta mövsümlə əlaqədar olaraq dəyişdirilirdi. İnsan bədənini örtən müxtəlif geyimlər: o cümlədən baş örtükləri, ayaqqabı, əlcəklər və başqa əşyalar toplusuna kostyum deyilir. Bu terminə görə də "kostyum” təyin olunmuş yığım komplektidir. Bura daxildir: jaketlər, donlar, jiletlər, pencəklər və şalvarlar. Analoji olaraq “kostyum” termini birinci təyinatla “tualet” sözü kimi qəbul edilmişdir, lakin bir sıra başqa mənalarda verir. Məsələn, tualet - ayaqqabı, əlcəklər, bəzək, elementləri daxil olmaqla geyimlər toplusudur.

Geyim - əşya uyğunluğuna görə vahid rəssam fikri ilə seçilmiş geyim toplusu ansambl ad-

lanır. Geyimin ansamblına elə əşyalar daxildir ki, onu insanlar geyinir. Qarnitur — eyni materialdan hazırlanmış və təyinatına görə geyim əşyalar yığımına qarnitur deyilir. Məsələn, alt məmulatlar qarnituru, papaqcıqlar, şallar və əlcəklər və s. Bir sıra qəti hallar üçün seçilmiş geyim yığımına “qarderob” deyilir. Qarderob - bu elə bir əşyadır ki, bir şəxsin və ya bir ailənin istifadə etdiyi geyimin lazımi dəstidir. “Platya” sözü iki məna daşıyır.

Birincisi odur ki, ayaqqabı və alt məmulatından başqa bütün geyimlər.

İkincisi isə dar mənada platya üst geyimidir, özü də çox hallarda qadınlara xasdır. Platya bir materialdan hazırlanır. Başqa məmulatlardan fərqləndirən də budur.

Model - yeni görkəmdə, forma, materialda, bəzəkdə görünməklə geyimə xas olan bir varlıqdır. Fason model əsasında yaranır, ona görə də bir model üzərində bir neçə fason yaratmaq olar. Model eyni ilə mövsümə əsasən tərtib olunur. Fasonu isə istənilən sayda tələbdən asılı olaraq dəyişmək olar. Ümumiyyətlə, modelləşdirilmə termini “modelirovka” sözündən götürülüb, mənası, yapma, yapışdırma, tərtib etmə, materiallarda formalaşdırılma və ya formanı materialda quraşdırma deməkdir.

Geyimlərin modelləşdirilməsi dedikdə rəssamların yaradıcılıq prosesində müxtəlif geyim modalarının yaradılmasıdır. Bu proses iki ardıcıl mərhələdə yerinə yetirilir: birinci geyim modasının bədii tərtibatının layihəsini işləmək, ikinci isə layihəni material üzərində yerinə yetirməkdir. Aydın məsələdir ki, geyim geniş istifadə olunan ən əhəmiyyətli əşya növüdür, ona görə də modelləşdirilmə tətbiqi incəsənətin ən vacib sahəsidir.

Bizim ölkədə geyimlərin modelləşdirilməsi dövlət əhəmiyyətli sayılır. Modelləşdirilmənin əsas funksiyalarından birisi sosial şərtlərdən əmələ gələn bədii ideyadır. Bu ondan ibarətdir ki, bizdə rəssam — modelyerlər modanı bir nəfər və ya kiminsə arzusu ilə yaratmırlar, ancaq xalq kütləsi üçün yaradırlar. Eyni zamanda müxtəlif qrup sifarişçilər tərəfindən yaradılır. İkinci funksiya isə ondan ibarətdir ki, geyimin modası onun təyinatına və istifadəsinə görə tərtib olunur. Bu funksiya ümumi - təcrübi funksiya adlanır.

Geyimlərin modelləşdirilməsi həm yaşlı nəsil üçün, həm də uşaqlar üçün aparılır. Uşaqlar beş qrupa bölünürlər: bağça qrupu, məktəbə qədər, kiçik məktəbyaşlı, məktəbyaşlı, böyük məktəb yaşlı və yeniyetmələr. Yaşlı nəsillər isə həm yaşa, həm də köklüyə görə aşağıdakılara bölünürlər: gənclər, orta yaşlılar və qocalar, köklüyə görə isə kiçik (M), orta (C), böyük (B) və lap böyük (OB). Geyim modelləşdirildikdə mütləq gigiyenik və rahatlıq tələbləri nəzərə alınmalıdır.

Rəssam sənaye üçün kütləvi sayda model yaratdıqda mütləq onun material nöqteyi - nəzərdən iqtisadiliyini nəzərdə tutmalıdır. Buna görə də geyimin modelləşdirilməsi qarşısında əsas məsələlər durur.

1. Moda istiqamətinin inkişafı.
2. Xalqın geyimə olan tələbini rəssamlar modada göstərməli.
3. Şəhər və kənd əhalisinin ədəb-ərkanı, adət-ənənəsi və geyimə olan zövqünü nəzərə almalı.
4. Müxtəlif növ geyim çeşidlərinin genişləndirilməsi.
5. Tikiş sənayesi üçün yeni növ materialların bəzədilərək tərtib etməli.

Hal-hazırda geyimlərin modelləşdirilməsi tikiş sənayesində sərbəst və xüsusi sahə təşkil edir. Rəssam-modelyer öz işində bir sıra texniki vəsaitlərdən istifadə edir, istifadə edilən texniki vəsaitlər iki görünüşə bölünürlər. Birinci görünüşə geyimlərin modelləşdirilməsi, texniki vəsaitlər, hansı ki, əyani formada geyimlərin modelləşdirilməsi layihəni ifadə edir, eyni zamanda konstruktiv qurma nöqteyi-nəzərindən modelin bədii tərtibatı və xüsusiyyəti xarakterizə olunur. İkinci, texniki, vəsait modellərin rəsmini, eskizini və maketləşdirilməsini xa-

rakterizə edir. Hər iki texniki vəsait görünüşlərinin özlərinə məxsus üstünlükləri vardır.

Rəsm — ekskiz vəsaiti, rəssam-modelyer və ya rənglə kağız üzərində işlənilir. Rəsmi işləmək — sözlə və yazı ilə hər hansı bir fikri ifadə etməyə bərabər rəssam dilidir. Eyni zamanda geyimlərin modelləşdirilməsində öz sənətini qrafiki cəhətdən rəssam tətbiq edir. Geyimlərin konstruksiya edilməsi isə rəssamın model üzərində işin ən əhəmiyyətli hissəsidir. Bu işi rəssam-modelyer və ya yüksək ixtisaslı konstruktor-texnoloq yerinə yetirir. Konstruksiya edilmə yalnız o demək deyil ki, təyin olunmuş insan bədən fiquru üçün onun cizgisini və ya ülgüsünü hazırlasın, eyni zamanda məmulatın hazırlanma üsullarını öyrənsin. Ona görə də hazır geyim məmulatının keyfiyyəti onun modasının düzgün işlənməsindən və konstruksiyasından asılıdır. Bədən fiqurunun ölçüsünü aparmaq üçün bir neçə üsuldan istifadə edilir. Məsələn, mulyaj, miqyaslı və mütənasib hesablama üsulları. Hal-hazırda geyimlərin modelləşdirilməsində bunlardan ən çox mulyaj və mütənasib hesablama üsullarından istifadə edilir. Mulyaj üsulu ilə kor təbii surətdə manikenlə və ya insan bədən fiqura üzərində cizgisi çəkilir və kağızdan, kəsilir; sonra detallar dəqiqləşdirilərək ülgüsü kəsilir. Mulyaj üsullarından nadir hallarda ancaq qadınlar üçün mürəkkəb formada paltar hazırlandıqda istifadə edilir. Əksər modellərin konstruksiyası mütənasib hesablama üsulu ilə aparılır.

Aydın məsələdir ki, bütün bu işlərin hamısına rəssam rəhbərlik etməlidir. Məmulatın hazırlanması üçün aşağıdakı ardıcıllığa diqqət yetirmək lazımdır.

1. Model tələbata uyğun olaraq işlənilir. Yəni kimin üçün, nə üçün, rahatlığı, materialı, gigiyenikliyi və s. nəzərə alınmaqla.

2. Modelə əsasən konstruktorlar cizgini qurmaq üçün hesabatı aparılır. Bədii tərtibat elementlərini nəzərə almaqla.

3. Cizgi hazır olduqdan sonra ülgüçülər qrupu cizgi üzərindən detalların ülgü komplektini kəsib hazırlayırlar.

4. Ülgülərin dəqiqləşdirilməsi aparılır və komplektləşdirilib təsdiq olunaraq möhürlənir. Bunların şurada müxtəlif təşkilatlardan nümayəndələr dəvət olunmaqla incəsənətşünaslar, rəssam-modelyer, tikiş və trikotaj sənayesi üzrə mütəxəssislər, başqa növ tətbiqi incəsənətçilər və ticarət işçilər iştirak edirlər.

Kostyumun — geyimin bədii layihələndirilməsində rəssam-modelyer aşağıdakı komponentləri əsas hesab edir.

1. İnsan - onun görünüşü, xarici görünüşü, əsas üzvləri və mütənasibliyi (proporsiyası);
2. İnsanın yaradıcılığı və ətrafının vəziyyəti;
3. Geyimdə onun xassəsi və forması;

Bu bölmədə aşağıdakı komponentlərə bağlanacaqdır. İnsan; onun xüsusiyyətliliyi, qabiliyyəti, yaradıcılığı və ətraf-vəziyyəti. Müxtəlif formaları formalaşdırdıqda, bədənin ayrı-ayrı hissələrinin öyrənilməsinin əhəmiyyəti böyükdür.

Plastik anatomiyadan məlumdur ki, bədənin bəzi sahələri geyimlə örtüldükdə ayaq səthi rolunu oynayır. Bu hissələrə daxildir: baş, boyun, çiyin, döş, qarın nahiyəsi, saçı, çiyinaltı, oma və baldır. Boyun: - qabaqda aşağı qurtaracağı döşün, yaxud yarıq kəsiyi, xirtdəklə arxada isə 7-ci boyun fəqərə sümüyünün səthi ilə əlaqədar olunub. Çiyin - bəzi hallara görə boyun hissə formasından asılı olur. Aşağı və maili çiyinlərdə boyun uzun, düz çiyinlərdə qısa olur. Döş - döşün forması, əzələ və döş fəqərəsindən asılıdır. Döşün yuxarı qurtaracağı xirtdək, aşağı qurtaracağı isə aşağı qabırğadır.

Qadınlarda yuxarı **əzələ yerində döş** nöqtələri yerləşir. Dörd formada olurlar: Kürə, yarımkürə, konusvari və sallanmış formada və s. olur. Qarın: döş qəfəsində aşağıda yerləşir, qurtaracağı çanağın yuxarı hissəsidir. Qadınlarda kişilərə nisbətən qarın hissə bir qədər uzun

və enlidir. Ona görə də qabağa çıxıntılı və dairə formaya malik olurlar. Kürək: bu hissə 7-ci boyun fəqərə sümüyü ilə büzdüm hissəsi arasında yerləşir. Kürəyin yuxarı hissəsi döşün bərabərliyində olduğu üçün o hissə kürəyin döş hissəsi aşağı hissə isə kürəyin bel hissəsi adlanır. Sarğı: - bu hissə həm formasına görə çıxıntılı olur, ona görə də geyimdə həmin formanı daşıyır. Çiyinaltı; - qolun ələ qədər aşağı hissəsidir. Yuxarı hissə yoğun, ələ yaxın hissə isə nazik olur. Oma: - yoğun diz qatlanacaq yerindən yuxarı hissəsidir. Baldır: - ayağın düz qatlanacaq yerindən aşağı barmaq hissəyə qədərdir.

Yuxarıda göstərilən bütün bədən hissələrinin geyimin modelləşdirilməsində böyük rolu vardır.

**Məqalənin aktuallığı.** Geyim məmulatlarının yaranma və təyinatına uyğun işlənmə səbəblərinin öyrənilməsi baxımından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə geyim məmulatlarının əmələ gəlmə səbəbləri ilə bağlı ilk dəfə olaraq müxtəlif tarixi faktlardan nümunələr gətirilir, geyimin ansamblına daxil olan əşyalar, onların ayrı-ayrı elementləri haqqında ətraflı məlumat verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, modelyerlər, eləcə də geniş oxucu kütləsi üçün faydalı ola bilər.

## Ədəbiyyat


1. O.Ş.Şamxalov, Ş.F.Abdullayeva. ALS ilə geyimlərin konstruksiya edilməsi. Bakı, 2009.
2. A.T.Truxanova. Tikiş istehsalı texnologiyasının əsasları. Bakı, 1998
3. E.N.Qasımova, L.H.Məmmədova. ALS ilə geyimlərin konstruksiya edilməsi. Bakı, 2013.
4. Кройка и шитье. М., 1990.
5. Шейте сами. М., 1990.


**О.Ш. Гамидова**

## Изучении причины производства швейных изделий при обучении по теме «Моделировании одежду»

## Резюме


В статье указаны причины возникновения одежды. Так, люди с помощью шкур животных, прикрывали плечо, грудь, спину и другие части тела. А потом появились материалы для одежды.

Постепенно появились волокна, текстильная промышленность. Говориться о том, что мода занимает основное в формировании одежд, также о модернизации от фасона.

**O.Sh. Gamidova**

## Teaching the reasons for the production of clothing products when teaching the topic "Don't model clothing"


## Summary

The article shows the reasons for the formation of clothing. So that, people covered their shoulder, chest, back and other parts with the animals skins. Later, the clothing materials appeared.

Gradually the fibers, the textile industry appeared. It deals with the importance of the fashion in the formation of clothing, style and modeling.


**Redaksiyaya daxil olub:** 06.11.2019